## Elman Xeyrulla oğlu İskəndərov – 60 il!



2022-ci il oktyabr ayının 31-də t.e.d., professor, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin qaz-neft-mədən fakültəsinin dekanı Elman Xeyrulla oğlu İskəndərovun 60 yaşı tamam olur.

O, 31 oktyabr 1962-ci ildə Lerik rayonunun Rvarud kəndində anadan olmuşdur. Orta məktəbi bitirib 1980-ci ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutuna (indiki Azərbaycan Memarlıq və İnşaat Universiteti) qəbul olunmuş, 1985-ci ildə həmin institutun inşaat fakültəsini bitirmişdir.

1987–1991-ci illərdə Azərbaycan Dövlət Qazlaşdırma Komitəsinin "Azqaztikintitəmir" trestində çilingər, mühəndis, plan-istehsalat şöbəsinin rəisi vəzifələrində işləmişdir. 1990–1997-ci illərdə Azərbaycan Dövlət Yanacaq Komitəsinin "Azqaztikintitəmir" tresti İxtisaslaşdırılmış Xətti Tikinti-Təmir İdarəsində baş mühəndis vəzifəsində çalışmışdır. 1997-ci ildən tikinti-təmir idarəsi özəlləşdirildikdən sonra əvvəlcə "Ocaq" firmasının, 2008–2015-ci illərdə isə "LTTQ" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru olmuşdur.

2010-cu ildə Azərbaycan Dövlət Neft Akademiyasının (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) nəzdində fəaliyyət göstərən "Neftin, qazın geotexnoloji problemləri və Kimya" ETİ-nin doktoranturasına qəbul olunmuş, 2012-ci ildə həmin institutun elmi şurasında "Çoxfunksiyalı nanotərkibli inhibitorla quyularda kristalhidrat əmələgəlmə və qaz kəmərlərində eroziyanı tənzimləməklə istismar göstəricilərinin yaxşılaşdırılması" mövzusunda dissertasiya işini müdafiə edərək texnika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almışdır. 2014–2021-ci illərdə "Neftin, qazın geotexnoloji problemləri və Kimya" ETİ-də əvəzçiliklə elmi işçi və böyük elmi işçi vəzifələrində çalışmışdır. 2018-ci ildə dosent elmi adını almışdır.

E.X.İskəndərov 2016-cı ildə ADNSU-nun "Neftin, qazın nəqli və saxlanması" kafedrasında dosent vəzifəsinə seçilmişdir. 2017-ci ildən "Qaz-neft-mədən" fakültəsində elmi işlər, 2018-ci ildən tədris işləri üzrə dekan müavini işləmiş, 2021-ci ildə isə həmin fakültənin dekanı vəzifəsinə seçilmişdir. O, 2022-ci il sentyabr ayının 15-də professor vəzifəsinə keçirilmişdir

Elman müəllim 2021-ci ildə "Karbohidrogenlərin nəqli və saxlanmasının enerjiyə qənaətli, sərvətqoruyucu üsul və texnologiyaları" mövzusunda dissertasiya işini müdafiə edərək texnika elmləri doktoru elmi dərəcəsi almışdır. Bir sıra qrant layihələrinin icraçısı olmuş, 2018-ci ildə keçirilmiş "Universitet qrantı" müsabiqəsinin qalibi olmuşdur.

E.X.İskəndərov 2022-ci ilin yanvar ayından Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının texnika elmləri üzrə Ekspert Şurasının üzvü , hazırda isə həmin şuranın sədr müavinidir.

O, 122 elmi əsərin, o cümlədən, 2 monoqrafiya, 2 ixtira patenti, 11 dərslik və dərs vəsaiti, habelə 17-si beynəlxalq xülasələndirmə və indeksləmə bazalarına (Thomson Reuters, Web of Science və Scopus) daxil olan 107 elmi məqalə və konfrans materialının müəllifidir.

E.X.İskəndərov 2014-cü ildə "Avropa Nəşr Mətbu Evi" mükafat komissiyasının qərarı ilə "Neftqazçıxarma sənayesi sahəsində apardığı uğurlu elmi tədqiqatlarına, cəmiyyətdəki fəal ziyalı mövqeyinə və gənclərdə vətənpərvərlik hisslərinin aşılanmasında göstərdiyi xidmətlərinə görə" "Ən yaxşı vətənpərvər tədqiqatçı alim" qızıl medalı, 2020-ci ildə Azərbaycan Respublikası Təhsil Nazirliyinin Fəxri Fərmanı ilə təltif edilmişdir.

Hörmətli Elman müəllim!

Sizi 60 illik yubileyiniz münasibətilə səmimi qəlbdən təbrik edir, Sizə uzun ömür, cansağlığı və elmi-pedaqoji fəaliyyətinizdə uğurlar arzulayırıq.

**ADNSU-nun "Qaz-neft-mədən"**
**fakültəsinin kollektivi**